AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**MEHMET TEMEL OĞLU KILIC**

# AZƏRBAYCANIN İSTİQLAL MÜBARİZƏSİNDƏ QAFQAZ İSLAM ORDUSUNUN ROLU (TÜRK MƏNBƏLƏRİ ƏSASINDA)

**İxtisas: 5502.01 - Ümumi tarix**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2015**

*Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
*Tarix üzrə elmlər doktoru, professor* **H.H.Sadıqov**

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru* **İ.S.Bağırova**
*Tarix üzrə fəlsəfə doktoru, dosent* **F.F.Əhmədova**

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin «Azərbaycan tarixi» (humanitar fakültələr üzrə) kafedrası

Müdafiə "_25___" _12_ 2015-ci il saat "___" da Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D. 01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir

**Ünvan:** 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat "___" ___________ 2015-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan milli tarixşünaslığında tədqiqi tarixi, siyasi, ənənəvi və elmi baxımdan mühüm sayılan ən aktual sayılan problemlərdən biri Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının elan edildiyi 1918-ci ilin I Dünya müharibəsində vuruşan dövlətlərin hərbi-siyasi planlarında Bakı neftinin yeri, 1918-ci ilin I yarısında Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhalisinə qarşı törədilən soyqırımı cinayətlərinin səbəbləri və bu zaman Osmanlı Türkiyəsinin Azərbaycana göstərdiyi hərbi yardım, Bakının bolşevik-daşnak erməni birliyindən azad edilməsi, Qafqaz İslam Ordusunun missiyası və digər mühüm tarixi məsələlər bu gün Azərbaycan xalqı üçün tarixi, elmi və siyasi aktuallıq kəsb edir.

Tədqiq olunan dövr Azərbaycan milli tarixində hərbi və siyasi baxımdan həm ən ağır, kəşməkeşli və həm də şərəfli bir dövrdür. Bu barədə, 1999-cu ildə Bakıda Şəhidlər Xiyabanında Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman türk əsgərlərinin şərəfinə ucaldılan abidənin açılışında çıxış edən Ulu öndər Heydər Əliyev demişdir: "XX əsrdə Azərbaycan xalqının taleyi çox ağır mərhələlərdən keçibdir. Rusiya imperiyası dağıldıqdan sonra Azərbaycan tarixdə bir çox böyük təhlükələr, faciələr ilə üz-üzə qalmışdır. Ermənilər bir neçə dəfə Azərbaycan xalqına qarşı soyqırımı həyata keçiriblər. Onlardan ən dəhşətlisi 1918-ci ilin 31 martında Bakıda törədilən soyqırımıdır. O zaman yalnız Bakıda deyil, Azərbaycanın bir çox bölgəsində belə soyqırımı həyata keçirdilər, minlərlə, on minlərlə sayda məsum insanları qətl etdilər. O zaman Azərbaycan və Bakı bir çox dövlətlərin diqqətini çəkirdi əsas məqsəd bütün rəqiblərini qabaqlayaraq böyük Turan ideyasını reallaşdırmaq məqsədilə Cənubi Qafqazı ələ keçirmək və buradakı Azərbaycanı və neft Bakısını ələ keçirmək istəyirdilər. O günlərdə bizə köməyə gələn Türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. Azərbaycanda Nuru paşanı, Xəlil paşanı indiyə qədər xatırlayırlar. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinmişdi. İnsanların bu tarixi öyrənmə imkanı olmamışdır. Ancaq o qəhrəman türk əsgərləri bizim xalqımızın qəlbində yaşamışdır. Burada şəhid olmuş türk əsgərlərinin ana-atasına, qohum-əqrəbalarına öz təşəkkürümü bildirirəm. Və bu əsgərlərin şəxsində qəhrəman Türk ordusuna, bu gün dünyanın ən güclü ordularından biri olan Türk ordusuna təşəkkürümü bildirirəm. Bu şəhidlərə Allahdan rəhmət diləyirəm. Allah rəhmət eləsin, qəbirləri nurla dolsun"[1]. Bu, ümummilli liderin Türk xalqının

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr,

qardaşlıq yardımına verdiyi çox yüksək qiymətdir. Elə buna görə də təqdim olunan mövzu həm elmi-siyasi həm də tarixi tədqiqat baxımdan çox mühüm və aktualdır.

Doğrudur, bu məqsədlə son 25 ildə Azərbaycan milli tarixşünaslığında Azərbaycan tarixinin müxtəlif sahələrini əhatə edən sanballı tədqiqatlar aparılmış və dəyərli faktlar üzə çıxarılmışdır. Xüsusilə Şərqdə ilk demokratik cümhuriyyət örnəyi sayılan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı məsələlərin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, onun müstəqilliyinin qorunub saxlanılması, ölkənin düşdüyü ağır vəziyyətdə Osmanlı Türkiyəsinin qardaşlıq köməyi, göstərdiyi hərbi yardım – Qafqaz İslam Ordusunun yaradılması, eləcə də bu ordunun qurtuluş yürüşü bu gün də tədqiqat obyektidir.

Bu baxımdan tədqiqat işi Türkiyə-Azərbaycan qardaşlığı, dostluğu əlaqələrinin bariz nümunəsini özündə əks etdirir. Bunu öyrənmək olduqca vacib və mühümdür. Bu əlaqələr indi də davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Türkiyə daim Azərbaycanın yanında olmuşdur. Azərbaycanı və Türkiyəni böyük əlaqələr, tarixi köklər bağlayır. Xalqlarımız bütün zamanlarda bir olmuşlar. Düzdür, Azərbaycan uzun illər ərzində Sovet İttifaqının tərkib hissəsində olduğuna görə, Türkiyədən ayrı düşmüşdür. Amma buna baxmayaraq, insanların qəlbindəki duyğular, yaşanan o həsrət bizi rahat buraxmırdı. Biz daim çalışırdıq, istəyirdik ki, Türkiyə ilə bir yerdə olaq, türk xalqı ilə bir yerdə olaq. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra biz buna nail ola bildik. Azərbaycan müstəqil dövlət kimi yaşamağa başladı və dərhal Türkiyədə Azərbaycanı tanıdılar və Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf etməyə başladı.

Bu tarixi dövr ölkə üçün, Azərbaycanda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün çox önəmli olmuşdur. Bu dövr ərzində Azərbaycanın gənc dövləti böyük sınaqlardan keçmişdir. Böyük problemlər, əziyyətlər ortaya çıxmışdır. Bütün bu problemlərin həllində biz daim qardaş ölkənin – Türkiyənin dəstəyini hiss etmişik və bunu bu gün də hiss edirik". Azərbaycan dövlətinin başçısının bu fikri öz tarixi keçmişimizə verdiyi çox yüksək bir qiymətdir[1]. Bu baxımdan da tədqiqat işi xüsusi aktuallıq kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1917-ci illərin sonu 1918-cu ili əhatə edir. Bu xronoloji çərçivə daxilində Osmanlı dövlətinin Qafqaz siyasəti,

---

məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXVI kitab: mart-aprel. 2000, Bakı: Azərnəşr, 2009, s. 190.

[1] Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, s. 182-183.

1917-ci il oktyabr çevrilişindən sonra Cənubi Qafqaz seyminin fəaliyyəti və süqutu, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi, Batum danışıqları və onun nəticələri və Qafqaz İslam Ordusunun yürüşü və neft Bakısının azad edilməsi, Mudros müqaviləsindən sonra türk ordusunun Azərbaycanı tərk etməsi məsələləri tədqiqatın xronoloji çərçivəsinə daxildir.

**Mövzunun öyrənilmə səviyyəsi.** I Dünya müharibəsinin sonlarında Qafqaz İslam Ordusunun Şimali Azərbaycandakı fəaliyyəti haqqında bir sıra əsərlər yazılsa da, kompleks şəkildə türk mənbələrində Qafqaz İslam Ordusunun Azərbaycanın istiqlal mübarizəsindəki rolu demək olar ki, tam şəkildə araşdırılmayıb. Lakin qeyd etmək lazımdır ki, tədqiq olunan problem Azərbaycan milli tarixşünaslığında 1918-1920-ci illərə aid arxiv sənədləri elmi ədəbiyyat və dövrü mətbuat materialları əsasında geniş şəkildə tədqiq olunmuşdur. Burada xüsusi olaraq AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun, Bakı Dövlət Universitetinin Tarix fakültəsi və digər elmi müəssisələrin alimləri tərəfindən hazırlanmış və nəşr edilmiş əsərlər xüsusi yer tutur[1]. Dissertasiya işi yazılarkən problemlə bağlı Türkiyə Cümhuriyyəti Dövlət arxivlərində saxlanılan sənədlər araşdırılmış, nəşr edilmiş əsərlər öyrənilmiş, sistemləşdirilmiş və elmi dövriyyəyə cəlb edilmişdir. Tədqiqat işində Süreyya Şevket Aydemirin "Makedoniyadan Orta Asiyaya Ənvər paşa"[2] "Son Osmanlı Paşası Halil Paşanın Hatıraları"[3] əsərlərindən istifadə edilməklə dövrün siyasi şəraiti öyrənilmişdir. Bu əsər Türk ordusunun ən böyük simalarından biri Ənvər və əmisi Xəlil paşalara həsr edilmişdir. Onun Ənvər Paşaya həsr etdiyi əsərdə, ordudakı fəaliyyətləri mərhələlər şəklində dövrü ardıcıllıqla verilmişdir. Müəllif, son Osmanlı paşası Xəlil paşanın xatirələrini tədqiqatçıların öhdəsinə buraxaraq türk tarixşünaslığında dəyərli bir işə imza atmışdır.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İ-II cildlər. Bakı: 2005; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Dövlət Universiteti,1996; Azərbaycan Xalq Cümhuriyyəti. Bakı. 1998; Azərbaycan tarixi VII cilddə. V cild. Bakı: Elm, 2001;VI cild, Bakı: Elm, 2000; Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: Hərbi Nəşriyyat, 1999; yenə onun. Nuru paşa. Bakı: Hərbi Nəşriyyat, 1999; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922-ci illər). Bakı: Azərnəşr, 2011. 473 s.

[2] Aydemir Şevket Süreyya. Makedoniyadan Orta Asiyaya Enver Paşa. Cilt III, İstanbul, 1970, 620 s.

[3] Aydemir Şevket Süreyya. Son Osmanlı Paşası Halil Paşanın Hatıraları // "Akşam" qezetesi, 10 Ekim – 29 Aralıq, 1967.

Problemlə bağlı Cemalettin Taşkıranın[1], Bayur Yusif Hikmetin[2], Belen Fahrinin[3], Gökay Bülentin[4], Nimet Kuratın[5], İhsan Ali Sabisin[6], Taylan Sorgünün[7] əsərlərində müəyyən dəyərli məlumatlar vardır.

Osmanlı dövlətinin Qafqazın və Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda mübarizəsi tarixinə Mustafa Çolakın[8], Mustafa Görüryılmazın[9], Nasir Yüceerin[10], Reha Yılmazın[11], Mustafa Budakın[12] əsərlərində də yer ayrılmışdır.

Reha Yılmazın "Birinci Dünya müharibəsinin başlancığında Osmanlı dövlətinin Qafqaz siyasəti"[13] əsəri diqqəti cəlb edir. R.Yılmaz bu əsərində

---

[1] Taşkıran Cemalettin. Kazım Karabekir Paşa askeri hayatı ve komutanlığı. Ankara: Gnkur. Basımevi, 1993, 342 s.

[2] Bayur Yusif Nikmet. Türk inkılabı Tarihi. Cilt II, Kısım 1. Ankara: Türk Tarih Kurumu Basımevi, 1983, 812 s.; Bayur Yusif Nikmet. Türk inkılabı Tarihi. Cilt III, Kısım 1. Ankara: Türk Tarih Kurumu Basımevi, 1983, 734 s.; Bayur Yusif Nikmet. Türk inkılabı Tarihi. Cilt III, Kısım 3. Ankara: Türk Tarih Kurumu Basımevi, 1983, 765 s.; Bayur Yusif Nikmet. Türk inkılabı Tarihi. Cilt III. 1914-1918 Genel savaşı, Kısım 4. Savaşın sonu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1983, 814 s.

[3] Belen Fahri (General). Birinci Dünya Harbinde Türk harbi 1918 yılı haraketleri. V cilt. Ankara: Genelkurmay Basımevi, 1967, 432 s.; Belen Fahri. XX. Yüzyılda Osmanlı Devleti. İstanbul: Remzi kitabevi, 1973, 446 s.

[4] Gökay Bülent. Bolşevizim ile Emperyalizim arasında Türkiye (1918-1923) (Çeviren: Sermet Yalçın). Tarih Vakfı Yurt Yayınları 68, İstanbul: 1998, 435 s.

[5] Kurat Akdes Nimet, (Dr.) Türkiye və Rusiya. Kültür Bakanlığı Yayınlari // 1194, Kültür Eserleri Dizisi / 150, Ankara: 1990, s. 498-520.

[6] Sabis Ali İhsan.(General-eski altıncı ve birinci ordu komutanı). Harp hatıralarım. Cilt-4. İstanbul: Nehir Yayınları, 1991, 345 s.

[7] Sorgül Taylan. Halil Paşa, İttihat ve Terakkiden Cumhuriyete Bitmeyen Savaş. İstanbul: Kamer Yayınları, 1997, 348 s.

[8] Çolak Mustafa. Alman İmperatorluğunun Doğu siyaseti Çerçivesinde Kafkasiya Politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu Basımevi, 2006, 566 s.

[9] Görüryılmaz Mustafa. Türk Kafkaz İslam Ordusu ve Ermeniler 1918. İstanbul: Bilgeoğuz Yayyınları, 2007, 516 s.

[10] Yüceer Nasır. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan və Dağıstan Harekatı, Azerbaycan və Dağıstanın bağımsızlığını kazanması 1918. Genelkurmay Basımevi, Ankara, 2002, 217 s.

[11] Yilmaz Reha. Birinci dünya savaşi başlarinda Osmanli devleti'nin Kafkasya siyaseti // OAKA, Cilt: 3, Sayı: 6,2008, s.137-160.

[12] Budak Mustafa. Nuru paşanin Qafqaz İslam ordusu haqqinda raportu. Kafkasiya Araştırmaları. Sayı: IV. İstanbul: 1998, s. 23-40.

[13] Yilmaz Reha. Birinci dünya savaşi başlarinda...Cilt:3, Sayı: 6, 2008, s. 137-160.

Osmanlı dövlətinin son dövrlərini yaşadığı illərdə "İttihad və Tərəqqi" partiyasının iqtidara gəlməsini dövlətin xarici siyasəti sahəsində, həmçinin diplomatiyasında Ənvər paşa və onun silahdaşlarının həlledici rolunun artmasını qeyd edir, birbaşa Qafqazla bağlı münasibətə gəlincə isə, bunu müəllifin qeydləri ilə ifadə etmək yerinə düşər. "I Dünya müharibəsi ərəfəsində Qafqaz Osmanlı Türkiyəsi dövlətinin xarici siyasətində xüsusi yer tutmasa belə, müharibə başlar – başlamaz bu region Osmanlıdan ötrü dərhal birinci dərəcəli əhəmiyyət kəsb etməyə başladı. Qafqaz cəbhəsindəki uğurlar Osmanlı dövlətini müharibədən qalibiyyətlə çıxacağına zəmanət verəcəkdi. Qafqazdakı xalqların azadlıq çağırışları Osmanlı Türkiyəsinin bu regiona yönəldən güclü amil oldu. Müəllifin əsərdə, Osmanlı Türkiyəsi dövlətinin Qafqaz siyasəti Ənvər Paşa simasında öz himayədarını tapdığını göstərərək, hələ 1913-cü ildən Qafqaz haqqında konkret planlara sahib olduğunu bildirir. Bu dövrdə Ənvər paşanın əsas hədəfi Qafqaz cəbhəsi idi. Müəllif əsərində Qafqaz xalqları arasında ən müşkül vəziyyətdə olan Şimali Azərbaycan azərbaycanlılarını olduğunu qeyd edərək, bu zaman, Azərbaycan Xalq Cümhuriyyətinin öz nizami silahlı qüvvələrinə malik olmadığı, güclü şəkildə silahlanmış ermənilərin isə bölgədə müsəlmanlara qarşı törətdikləri soyqırımı cinayətləri nəticəsində Azərbaycan xalqının hər zaman təhlükə qarşısında olduğu qeyd edilir.

Qafqaz İslam Ordusu hərəkatı tarixini olduğu kimi dərk etmək, qiymətləndirmək baxımından Osmanlı Türkiyəsinin I Dünya müharibəsində müttəfiqi olan Almaniya ilə münasibətləri, habelə Almaniyanın bu müharibədə iştirakı, o cümlədən Almaniyanın Qafqazla bağlı siyasətini də öyrənmək xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Mustafa Çolakın "Almaniyanın Qafqaz Siyasəti (1917-1918-ci illər)[1] adlı əsəri xüsusi maraq doğurur. Nəzərə almamalıyıq ki, bu tədqiqat işi Mustafa Çolakın mövzu üzərində illərdən bəri Almaniya Federativ Respublikasının Dövlət Arxivlərində apardığı böyük tədqiqat işinin bir hissəsidir. Müəllif burada almanların Qafqaz, xüsusilə Azərbaycan siyasətinin əsas istiqamətlərini araşdırmışdı. Tədqiqat işinin araşdırılmasında bu əsərdən qismən də olsa istifadə edilmişdi.

Nasir Yücəər "Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azərbaycan və Dağıstan Hərəkatı, Azərbaycan və Dağıstanın müstəqilliyini qazanması 1918"[2] əsərində Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhu-

---

[1] Çolak Mustafa. Alman İmperatorluğunun Doğu siyaseti Çerçivesinde Kafkasiya Politikası (1914-1918), 566 s.

[2] Yüceer Nasır. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan və Dağıstan Harekatı, Azerbaycan və Dağıstanın bağımsızlığının kazanması 1918, 217 s.

riyyətinin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş hazırlıqlarını, eləcə də baş verən döyüşlər təfərrüatı ilə şərh edilmişdir. Müəllif Qafqaz İslam Ordusunun Bakının azad edilməsi ilə bağlı bütün hadisələri şərh etməklə Şimali Azərbaycanın rus-erməni əsarətindən qurtarılması və Azərbaycan Xalq Cümhuriyyəti öz həqiqi istiqlalına qovuşmasını tədqiq etmişdi.

Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri işçisi, dosent-doktor Mustafa Budaqın Qafqaz Araşdırmaları Mərkəzində nəşr olunmuş "Nuru Paşanın Qafqaz İslam ordusu haqqında raportu"[1] adlı əsərində müəllif Nuru Paşanın raportunu dərc etmədən əvvəl Anadolu-Qafqaz cəbhəsində, eləcə də Cənubi Qafqaz, Şimali Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyası şəraiti və Osmanlı dövlətindən gözlənilən köməyin hazırlanma şəraitinin xülasə şəklində şərhini verdikdən sonra Nuru Paşanın fəaliyyətinin bütün məqamlarına toxunur. Bu əsər etibarlı sənəd, mənbə təsiri bağışlayır. Həm də dövrün başlıca hadisələri və mövcud olan zəngin şərait haqqında çox dolğun və qiymətli məxəz hesab olunmalıdır.

Beləliklə, mövzu ilə bu və ya digər dərəcədə bağlı olan əsərlərin təhlilindən məlum olur ki, türk mənbələrində Qafqaz İslam Ordusunun Şimali Azərbaycanın istiqlal mübarizəsindəki rolu məsələsi hələlik kompleks şəkildə tədqiqata cəlb edilməmiş və bu iş ilk cəhddir. Bu baxımdan, türk mənbələrində Qafqaz İslam Ordusunun Şimali Azərbaycanın istiqlal mübarizəsindəki rolu araşdırılmaqla, tarixi dərslərdən düzgün məntiqi nəticələr çıxarmaq, ümumtürk birliyini daha da gücəndirmək baxımından böyük elmi və əməli əhəmiyyət kəsb edir.

**Tədqiqatın mənbə bazası.** Mövzunun Qafqaz İslam Ordusu hərəkat tarixinə aid bir tədqiqat işi olduğunu nəzərə alaraq əsas mənbə kimi Türkiyə Silahlı Qüvvələri Genəl Kurmay Başkanlığı Əsgəri Tarix və Strateji Etüdun (ATASE) Başkanlığı Arxivin materialları təşkil edir[2]. Burada I Dünya müharibəsinə aid olan 3.50000-nə qədər arxiv materiallara baxmış və problemlə bağlı çoxlu sayda sənədləri elmi dövriyyəyə gətirilmişdir. Dissertasiyada

---

[1] Budak Mustafa. Nuru paşanin Qafqaz İslam ordusu hagginda raportu. Kafkasiya Araştırmaları. Sayı: IV, İstanbul: 1998, s. 23-40.

[2] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu; Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Tarihçeler (TAR) Kolleksiyonu; Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Barış Faaliyetleri (BAF) Kolleksiyonu; Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. İstiklal Harbi (İSH) Kolleksiyonu.

ilk dəfə bu sənədlər araşdırılaraq təhlil edilir. Bununla yanaşı tədqiqat işində Başbakanlıq Cümhuriyyət Arxivinin[1], Milli Savunma Bakanlığının[2], Türkiyə Cümhuriyyətinin Əməkli Sandığı[3], Qara Hərbi məktəbin[4], Kazım Orbayın[5], Türkiyə Böyük Millət Məclisinin[6] arxivlərindən və dövrün qəzet və məcmuələrdən[7] lazımı qədər istifadə edilmişdir.

Tədqiqat işinin yazılmasında istifadə olunan əsas əsərlərdən biri də Qafqaz İslam Ordusunun sərəncamında və əsasən hərəkatın işində olan ordu komandirlərinin yazdıqları xatirələr, onların xatirələri əsasında tərtib edilmiş sənədli materiallar və yol qeydlərindən istifadə edilmişdir. Bu əsərlər memuar xarakter daşıdıqları üçün dissertasiya işində onlardan bir mənbə kimi istifadə olunmuşdur.

Bu əsərlər içərisində İsmayıl Berkovun “Böyük hərbdə Şimalı Qafqazdakı fəaliyyətimiz və 15 fırqənin hərəkəti və müharibələri[8] əsəri Türk ordusunun bölgədəki fəaliyyətini geniş şəkildə əks etdirir. Bundan əlavə Tefik Bıyıqlıoğlunun Mudros sülhünün nəticələrinə[9], Kaymakam Rüştünün, 5-ci Qafqaz Piyada Diviziyasının Qafqaz hərəkatı[10], Süleyman İzzətin[11], Kazım Qarabəkirin[12], Fahrettin Kırzıoğlunun[1], İlhan Selçukun[2], Nağı Keykurunun

---

[1] Başbakanlık Cumhuriyet Arşivi (B.C.A.).
[2] Nuri Killigilin Şahsi Dosyası.
[3] Yenə orada.
[4] 23 No.lu Numara Defteri.
[5] Türk Tarih Kurumu Kitaplığı (T.T.K.) Kazım Orbay Arşivi (KO).
[6] Sabah, 17 Eylül 1918; 24 Eylül 1918; T.B.M.M. Tutanak Dergisi, Elli yedinci Birleşim, 18 mart 1949 Cuma, Dönem: VIII, Cilt: 17, Toplantı: 3; T.B.M.M. Tutanak Dergisi, Elli dokuzuncu Birleşim, 23 mart 1949 Cuma, Dönem: VIII, Cilt: 17, Toplantı: 3; Tanım, 17 Eylül 1918; 21 Eylül 1918.
[7] Askeri Mecmuanın Tarih Kısmı (1934, 1936, 1940).
[8] Berkuk İsmail. (Miralay). Büyük Harpte (334) Şimali Kafkasya'daki Faaliyetlerimiz ve 15. Fırka'nın Harekatı ve Muharebeleri. 94 sayılı Askeri Mecmua'nın 44 sayılı Tarih Kısmı. İstanbul: Askeri Matbaa, 1934, 368 s.
[9] Bıyıklıoğlu Tevkik. Modros Mütarekesinde yeni vesikalar. TTK, Basımevi, Belleten, Sayı 84, Ankara: 1957, s. 65-80.
[10] Kaymakam Rüştü. Büyük harpte Bakü Yollarında 5. Kafkas Piyade Fırkası. 93 Sayılı Askeri Mecmuanın 34 Sayılı tarih kısmı. İstanbul: Askeri Matbaa, 1934, 548 s.
[11] Emekli Kurmay Yarbay Süleyman İzzet (E. Kur. Yarbay). Büyük Harpte (1334-1918) 15. Piyade Tümeninin Azerbaycan ve Şimali Kafkasyadakı Haraket ve Muharebeleri. 103 saylı Askeri mecmua, Sayı 44, İstanbul, Askeri matbaa, 1936, 438 s.
[12] Karabekir Kazım. İstiklal Harbimizde Enver Paşa ve İttihat Tarakki Erkanı. İstan-

Keykurunun (Şeyxzamanlının)[3] xatirələrindən geniş istifadə edilmiş, dövrün siyasi xadimləri Məmməd Əmin Rəsulzadənin, Cahangir Zeynaloğlunun əsərlərindən də istifadə olunmuşdur. Bütün bunlarla yanaşı dissertasiya işində Qafqaz İslam Ordusu ilə bağlı Nuru Paşanın raportundan da geniş istifadə edilmişdir. Nuru Paşa bu raportu öz arzusu ilə hazırlamamışdır. Lakin 1930-cu ildə Baş Hərbi Qərargah idarəsi nəzdindəki Hərb Tarixi Komissiyası Nuru Paşadan "Mudros müqaviləsindən" Sovet Rusiyasının Şimali Azərbaycanı işğalına qədər Cənubi Qafqazdakı hərbi quruculuq işləri və baş verən hadisələr haqqında geniş bir raport tələb etdikdən sonra bu sənəd ortaya çıxmışdır.

Bu raport haqqında ilk məlumat Şövkət Sürəyya Aydəmirin Ənvər paşa ilə əlaqədar olan əsərində verilmişdir. Şövkət Sürəyya Aydəmir raport və ya xatirənin bir nüsxəsi kimi göstərdiyi bu raport haqqında yazır: "Əsli hər halda köhnə hərflərlə yazılan bu sənədin əlimizdəki nüsxəsi yeni hərflərlə yazılıb. Lakin makinada yazanın oxuya bilmədiyi üçün boş qoyduğu yerlər Nuru Paşanın əlyazması ilə və yenə də yeni hərflərlə doldurulmuşdur. Bu yazılarda İslam Ordusu hərəkatı başdan axıra qədər xülasə edilib"[4]. Şövkət Sürəyya Aydəmirin sadəcə istifadə etdiyi və harada olduğunu göstərmədiyi Nuru Paşanın Qafqaz İslam Ordusu haqqındakı raportunun əsl nüsxəsi ATASE Arxivində I Dünya müharibəsi Kolleksiyası Sənədləri arasında köhnə hərflərlə 42 səhifə (32 hissə sənəd) şəklində mövcuddur[5]. Əlavə olaraq, bu raportun bir hissəsi (hərbi fəaliyyətlər) 12 səhifə şəklində latın qrafikasına çevrilmiş və makinada yazılmış şəkildə həmin arxivdə saxlanılır[6]. Lakin bu raportun köhnə hərfli qaralama nüsxəsi 47 səhifə şəklində Türk

---

bul: Menteş matbaası, 1967, 432 s.; yenə onun. İstiklal Harbimiz. İstanbul: Türkiye Yayınevi, 1969, 348 s.; Karabekir Kazım. Erzincan ve Erzurumun Kurtuluş Sarıkamış, Kars ve ötesi. Erzurum: 1990, 455 s.

1 Kırzıoğlu Fahrattin. Kazım Karabekir. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, 467 s.

2 Selçuk İlhan. Yuzbaşı Selahattinin romanı. Remzi Kitabevi, İstanbul: 1984, 384 s.

3 Keykurun Naki. (I. Azerbaycan Cuhuriyeti Milli Emniyet Müdürü), Azerbaycan istiklal Mücadelesinin Hatıraları (1905-1920). İlke Kitabevi Yayınları, Ankara: 1998, 245 s.

4 Aydəmir Şevket Süreyya. Makedoniyadan Orta Asiyaya Enver Paşa. Cilt III, İstanbul: 1970, s. 38.

5 Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3823, D. 22, F. 6; F. 6-32.

6 Yenə orada. BDH Kol., K. 3823, D. 22, F. 7; F. 7-12.

Tarix Qurumu Kitabxanası Kazım Orbay Arxivindədir[1]. Həmin arxivdə, bu raportun hərbi fəaliyyətlər hissəsinin 12 səhifə makinada yazılmış bir nüsxəsi də vardır ki, bu, ATASE arxivindəki 12 səhifəlik hissə ilə eynidir[2]. Beləliklə, Şövkət Sürəyya Aydəmirin istifadə etdiyi mətn Türk Tarix Qurumu Kitabxanası Kazım Orbay Arxivində yerləşən 12 səhifəlik latın hərfli nüsxədir.

Nuru Paşanın Qafqaz İslam Ordusu haqqındakı bu raportu 1918-ci ilin mart ayı – 1920-ci illər arasında Cənubi Qafqaz və xüsusilə Şimali Azərbaycanda baş verən hərbi-siyasi hadisələr haqqında məlumat vermək məqsədi ilə hazırlanmışdı. Başqa sözlə, Nuru Paşanın həm Qafqaz İslam Ordusu komandanı kimi, həm də ondan sonrakı dövrdə Şimali Azərbaycanda yaşadığı və göstərdiyi fəaliyyətlərin bir təsviridir. Raportun subyektiv olduğu iddia edilsə də, hərbi fəaliyyətlər bilavasitə rəsmi sənədlərlə birlikdə təsvir edildiyindən 1918-1920-ci illər Cənubi Qafqazdakı və hərbi hadisələri dərk etməyimizə yardım edən son dərəcə əhəmiyyətli bir sənəd sayıla bilər. Digər tərəfdən, Nuru Paşanın bu raportu I Dünya müharibəsinin sonuna az qalmış bir dövrdə Osmanlı dövlətinin, bir az da Ənvər paşanın səyi ilə Şimali Azərbaycanın öz dövlət müstəqilliyini reallaşdırmaqla Qafqazı, hətta, Orta Asiyanı əhatə edən böyük siyasi fəaliyyətinin təsviridir. Bu təsvirin daxilində Azərbaycanın müstəqilliyini elan etməsinə də yer verilmişdir. Nuru Paşanın bu raportundan məlum olur ki, həm osmanlılar, həm də azərbaycanlılar Şimali Azərbaycanla Dağıstanın (daha dəqiq desək, Şimalı Qafqazın) taleyini bir yerdə görürdülər. Bütün bu hadisələri Nuru Paşanın Qafqaz İslam Ordusu haqqında hazırladığı raportdan öyrənmək mümkündür və bu mənada bu raport son dərəcə əhəmiyyətlidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Türk mənbələri əsasında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolunun kompleks şəkildə araşdırılmasıdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsini məqsəd kimi qarşıya qoymuşdur:

- Qafqaz İslam Ordusu ideyasının meydana çıxmasını təhlil etmək;
- Müstəqilliyin elan edilməsi ərəfəsində Qafqazda baş verən hadisələrin şərhi;
- Nuru Paşanın Qafqaz İslam Ordusu komandiri təyin edilməsi səbəbini araşdırmaq;

[1] Türk Tarih Kurumu Kitaplığı (T.T.K.) Kazım Orbay Arşivi (KO). № IV/194

[2] Yenə orada. № IV/201.

- Nuru Paşanın Gəncəyə gəlməsi, təşkilat işlərinə başlaması və Gəncədəki ermənilərin itaət altına alınması və silahların toplanması məsələlərini şərh etmək;
- Göyçay və Salyan uğrunda gedən döyüşlərin nəticələrini təhlil etmək;
- Qafqaz İslam Ordusunun 5-ci Qafqaz Diviziyasının Şərq istiqamətində hərəkəti Ağsu, Kürdəmir və Şamaxının azad edilməsi;
- Qafqaz İslam Ordusunun birinci və ikinci Bakı hücumuna qədər baş verən hadisələrin təhlil edilməsi;
- İkinci Bakı Hücumu, Bakının azad edilməsi və Qafqaz İslam Ordusunun Qarabağdakı fəaliyyətini şərh etmək;
- Mudros sülhü və Osmanlı Ordusunun Şimali Azərbaycandan geri çəkilməsi məsələlərini ayrı-ayrılıqda təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işində bir sıra tarixi elmi baxışlar, mövqelər və yanaşmalar dövrün beynəlxalq münasibətlər sistemi kontekstində nəzərdən keçirilmişdir. Mövzu üzərində tədqiqat işi apararkən müasir tarix elmində tətbiq edilən üsullardan istifadə edilmiş, araşdırmanın hər mərhələsinə uyğun üsul tətbiq olunmuş, tarixi-müqayisəli metodlardan istifadə edilmişdi. Mənbələr, materiallar janr və məzmuna görə sistemləşdirilərək məntiqi və xronoloji ardıcıllıqla təşkil edilmişdi.

Tədqiqat işində tarixi şərh və təhlillər dəyərli elmi-əməli qənaətlər və nəticələrlə yekunlaşdırılmışdır. Bütün bunlarla yanaşı təqdim olunan dissertasiyada tarixi proseslər təhlil olunmuş, türk mənbələri əsasında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolu kompleks şəkildə araşdırılaraq tədqiq olunmuşdur. Tarixi reallıqlar olduğu kimi, obyektiv yanaşma tərzində əks etdirilmişdir. Türk mənbələri əsasında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolunun müqayisəli tarixi tədqiqi verilmişdir. Müəllif ənənəvi üsullardan imtina edərək, müəyyən tarixi çərçivədə tədqiq etmiş, türk mənbələri əsasında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolunu araşdırmışdır. Tədqiqat işində türk mənbələri əsasında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolu ilk dəfə tədqiqata cəlb olunur və tamamilə yeni mənbələr əsasında araşdırılır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi-tarixi əhəmiyyəti hər şeydən əvvəl, onunla şərtlənir ki, türk mənbələri əsasında Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolu ilk dəfə olaraq sistemli şəkildə hərtərəfli tədqiq olunmuşdur. Dissertasiya işinin yeniliyi konkret olaraq aşağıdakılardan ibarətdir:

Azərbaycan milli tarixşünaslığında ilk dəfə olaraq türk mənbələri əsa-

sında Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolunu müstəqil tədqiqat obyektinə çevrilmişdir;

- 1917-ci il Oktyabr çevrilişindən sonra Qafqazda siyasi vəziyyət bütövlükdə izlənilmiş, araşdırılmışdır;
- Qafqaz İslam Ordusunun Gəncəyə gəlməsi və Şimali Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin ilk mərhələsi hərtərəfli şərh edilmişdir;
- Tarixə dair elmi ədəbiyyatda Şimali Azərbaycanın istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolu mövcud türk mənbələri əsasında sistem halına salınaraq təhlil edilmiş və müvafiq nəticələr çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin ciddi nəzəri və praktiki əhəmiyyəti vardır. Dissertasiyanın əsas müddəalarından və elmi nəticələrindən istifadə edilə bilər:

- universitetlərin tarix və beynəlxalq münasibətlər fakültələrində Azərbaycan xalqının istiqlal mübarizəsində Qafqaz İslam Ordusunun rolu (Türk mənbələri əsasında)" mövzusunda ixtisas kurslarının aparılmasında;
- Azərbaycanın hərb tarixi mövzusunda dərslərin keçirilməsində;
- Müasir Azərbaycan tarixinə dair aparılan gələcək tədqiqatlarda;
- mövzu ilə əlaqəli olan mühazirələrdə, ixtisas artırma kurslarında;
- Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı Türkiyəsi arasında hərbi əməkdaşlıq əlaqələrinin daha dərindən tədris edilməsində möhkəmləndirilməsində;
- tarixi mövzuda elmi seminar və konfransların keçirilməsində;
- Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Müdafiə Nazirliyinin tədris müəssisələrində istifadə edilə bilər;
- İki ölkə arasında bu sahə ilə məşğul olan müəssisə, idarə və təşkilatların gündəlik fəaliyyətində.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işi Gəncə Dövlət Universitetinin Tarix fakültəsinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiq olunan dissertasiya işi giriş, dörd fəsil, on səkkiz yarım fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin Giriş** hissəsində araşdırılan mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Girişdə, həmçinin elmi yenilikləri verilmiş, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"1917-ci il fevral inqilabından sonra Qafqazda siyasi vəziyyət"** başlığı ilə verilmiş birinci fəsil üç yarımfəsildən ibarətdir. Birinci fəslin "**Müstəqillik ərəfəsində Azərbaycanda baş verən hadisələr"** adlanan birinci yarımfəsli geniş şəkildə işıqlandırılmışdır. XX əsrin əvvəllərində Rusiya kimi nəhəng imperiyanın indiyə kimi heç kəsin nəzərini cəlb etməyən Yaponiyaya uduzması nəticəsində imperiyanın bir çox bölgələrində olduğu kimi Qafqazı da sözün əsl mənasında çaxnaşma bürümüş, bölgə xalqlarının müstəqillik arzuları artmağa başladı.

Birinci Dünya müharibəsinin gedişində Qafqaz xalqları da öz müstəqilliyinə qovuşmaq üçün ayağa qalxmış, öz məqsədlərinə çatmaq üçün müxtəlif vasitələrə əl atmışlar. Ermənilər ruslardan istədiklərini əldə edə bilməyincə Qərb dövlətlərinə, gürcülər, azərbaycanlı və Dağıstan türkləri isə Osmanlı dövlətinə tərəf yönəldilər[1].

1917-ci il mart qiyamından sonra (fevral inqilabı nəzərdə tutulur – M.K.) Maverayi Qafqazda (Cənubi Qafqaz) gürcü menşevikləri aparıcı qüvvə kimi, qiyamı ardınca qurulan müfəqqəti hökumət tərəfindən Petroqraddakı deputatlardan Tiflisdə təşkil edilən Maverayi Qafqaz Komitəsində rəhbərliyi öz əlinə aldılar[2]. Oktyabr inqilabından və 1917-ci il dekabrın 18-də imzalanan Ərzincan sülhündən sonra rus əsgərinin cəbhədən çəkilməsi ilə ermənilərin işlərini daha da asanlaşdırdı. Bolşevik hökuməti, Qafqazda maraqlarını yenidən təmin etmək məqsədilə erməni əsilli bolşevik S. Şaumyanı Cənubi Qafqaza göndərdi. Beləcə, geri çəkilən rus əsgər və məmurlarının yerlərini ermənilər almağa başladı. Ermənilərin iddia etdikləri kimi 1915-ci il "qisasını" almaq üçün türk-müsəlman əhaliyə qarşı qətliyama başladılar[3].

---

[1] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3823, D. 22, F. 7-2.

[2] Kurat Akdes Nimet, (Dr.) Türkiye və Rusiya. Kültür Bakanlığı Yayınlari // 1194, Kültür Eserleri Dizisi / 150, Ankara 1990, s. 459.

[3] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3823, D. 22, F. 7-4.

1918-ci il aprelin 23-də Seymdə başlanan uzun müzakirələrdən sonra Cənubi Qafqaz cümhuriyyətləri müstəqilliyini elan etdilər. Aprelin 23-də yenicə yaranan müstəqil hökumət Seymdə öz yerini alır. Hökumətdə təmsil olunan 12 nazirdən dördü türk idi. Bu zaman yeni Baş nazir və Xarici İşlər Naziri Çxenkeli, Osmanlı Türkiyəsinin şərtlərini qəbul etdiyini Vehip Paşaya bildirir[1].

Milli hökumətlə olan mübahisəli məsələlər həll olunduqdan sonra 1918-ci il mayın 25-dən Gəncədə yerləşən Nuru Paşa Qafqaz İslam Ordusunu möhkəmləndirmək üçün təşkilati işlərə başlayır. İyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında Batumda imzalanan müqavilənin 4-cü maddəsinə görə, Osmanlı dövləti bölgədə möhkəmlənmək və Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etmək üçün əlavə qüvvələri Gəncəyə göndərməyə başladı[2].

Birinci fəslin ikinci yarımfəsli "**Qafqaz İslam Ordusu ideyasının meydana çıxması" adlanır.** Bu yarımfəsildə Bu dövrdə başda Rusiya olmaqla digər Avropa dövlətlərinin təsiri ilə Balkan millətləri arasında başlayan milliyyətçilik hərəkatları nəticəsində bu dövlətlərin müstəqilliyə qovuşması Osmanlı Türkiyəsi rəhbərliyini düşünməyə vadar etdi. Osmanlı dövləti Balkanlarda baş qaldıran hərəkatın qarşısını almaq üçün gördüyü tədbirlər heç bir nəticə vermədi. Osmanlı Türkiyəsi dövləti, xüsusilə Ənvər Paşa Qafqazda türk və müsəlman əhalisinin yaşadığı ərazilərdə təşkilatlanmaq məqsədilə yerli müsəlmanlardan ibarət İslam Ordusu yaratmaq üçün Nuru paşanın bir qərargah heyəti ilə Şimali Azərbaycana göndərilməsi uyğun hesab edildi. Qurulacaq İslam Ordusu iki diviziyadan, piyada və süvari alanlarından təşkil edilərək, zabit heyətləri də ona görə tənzimlənəcəkdi. Orduya rəhbərlik edəcək podpolkovnik Nuru bəyə Paşa rütbəsi verildi[3].

Rusiyada hərbi çevriliş nəticəsində bolşeviklər hakimiyyətə gəldikdən sonra, Petroqraddakı yeni hökumətin hərbi əməliyyatları dayandırması və I Dünya müharibəsindən çıxdığını elan etməsi, Osmanlı Türkiyəsi dövlətinin ümidlərini gerçəkləşdirdi. Bu zaman, türk ordusunun bölgədə heç bir müqavimətlə rast gəlməyərək, burada möhkəmlənmək üçün münasib şərait ya-

---

1 Bayur Yusif Nikmet. Türk inkılabı Tarihi. Cilt III, Kısım 3. Ankara: Türk Tarih Kurumu Basımevi, 1983, s. 189.

2 Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3822, D. 17, F. 2-3.

3 Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K.3823. D. 22. F. 7; 6, TAR. Koll. K. 1, D.1, F.1-121.

ranmışdı.

Tədqiqat işinin üçüncü yarımfəsli **“Nuru Paşanın Qafqaz İslam Ordusu komandiri təyin edilməsi”** adlanır və bu yarımfəsildə Nuru Paşanın Orduya komandir təyin edilməsi geniş şəkildə araşdırılmışdır. Azərbaycan xalqının intizarında olduğu yardımların göstərilməsi və bütünlükdə Osmanlı dövlətinin Şimali Azərbaycan və Qafqazla bağlı planlarının həyata keçirilməsi üçün gərəkli bilinən hərbi qüvvələrin yaradılması 1918-ci ilin əvvəllərində artıq Ənvər Paşa və onun silahdaşlarının diqqət mərkəzində idi.

Tədqiqat işinin **“Qafqaz İslam Ordusunun Gəncəyə gəlməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin ilk mərhələsi”** adlanan ikinci fəsli altı yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **“Nuru Paşanın Gəncəyə gəlməsi və təşkilat işlərinə başlaması”** təhlil edilmişdi. 1918-ci il iyunun 4-də Batumda Dostluq və Əməkdaşlıq müqaviləsi imzalanmışdı. Müqaviləyə Osmanlı dövləti Ədliyyə Naziri Xəlil bəy və Şərq Orduları komandanı Vehib Paşa ilə Azərbaycan Milli Şurası rəisi Məmməd Əmin Rəsulzadə və Xarici İşlər Naziri Məmməd Həsən Hacınski imza atmışdılar. M.Rəsulzadə, bu müqavilə hökmlərinə görə, Qafqazdakı türk və müsəlman xalqa qarşı qətliamın bir an öncə dayandırılması üçün Osmanlı dövlətindən hərbi yardım istədi[1].

Şimali Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşa Gəncədə yerləşdikdən sonra, dərhal Şimali Azərbaycanın müxtəlif məntəqələri ilə əlaqə yaratmış və həmin məntəqələrdə müqavimət dəstələrinin təşkilinə başlamışdır. Bununla bağlı, Nuru Paşanın xatirələrində qısa zaman ərzində Gəncə-Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ və Zəngəzurun şərq tərəflərini əhatə edən məntəqələrdə asayişi təmin etmək məqsədilə idarə və komanda mərkəzlərinin təsis edildiyi qeyd olunur[2].

İkinci fəslin ikinci yarımfəsli “**Gəncədəki ermənilərin itaət altına alınması və silahların toplanması”** adlanır və bu yarımfəsildə hadisələr geniş şəkildə araşdırılmışdır. Azərbaycanın dövlət müstəqilliyinin qorunması və ərazi bütövlüyü uğrunda 1918-ci il mayın 25-də Gəncəyə gələn Nuru Paşa təşkilatı işlərlə yanaşı, arxadan baş verə biləcək hər hansı bir təhlükəsizliyi təmin etmək məqsədilə ilkin olaraq şəhərin şərqində yaşayan ermənilərin silahlarının toplanması və itaət altına alınması üçün hərəkətə başladı.

Tədqiqat işinin ikinci fəslinin üçüncü yarımfəsli “**Göyçay uğrunda dö-**

---

[1] Birinci Dünya Harbinde Türk Harbi Kafkas Cephesi. 3ncü Ordu Harekatı. Cilt II. Ankara: Genelkurmay Basımevi, 1978, s. 555.

[2] Yenə orada. BDH. K. 3823, d. 22, f.7-3.

**yüşlər"** adlanır. Azərbaycan Xalq Cümhuriyyətinin dəvəti ilə yenicə yaranan dövlətin ərazi bütövlüyünü təmin etmək məqsədilə Osmanlı ordusunun Gəncəyə gəlməsi, Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun təşkil edilməsi, Azərbaycan Milli Ordusunun yenidən təşkilinə başlanması, Bakı Xalq Komissarları Sovetinin rəhbərliyini ciddi təşvişə salmışdı. Bakıdakı bolşevik idarəsinin başında duran erməni Şaumyanın ən çox qorxduğu şey Bakının Osmanlı Türkiyəsi Ordusu tərəfindən ələ keçirilməsi idi[1]. Göyçay istiqamətində ilk döyüşlərdə Qafqaz Islam Ordusunun qüvvələri məğlubiyyətə uğradı[2]. Bolşevik və erməni ordusu bu döyüşdən sonra bir daha hərbi təşəbbüsü əsaslı şəkildə ələ ala bilmədilər. Döyüşlərə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu hissələri, habelə hərbi əməliyyatlara qoşulan Azərbaycan könüllüləri Göyçay ətrafındakı döyüşdən sonra müdafiə vəziyyətindən çıxıb hücuma keçdilər.

Dissertasiyanın ikinci fəslinin dördüncü yarımfəsli "**Salyan uğrunda döyüşlər"** adlanır və bu yarımfəsildə də Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda apardığı mübarizə geniş işıqlandırılır. Qafqaz İslam Ordusunun Göyçay uğrunda mübarizə ilə eyni vaxtda, Şimali Azərbaycanın cənub hissəsində Kür çayı boyunca, Salyan yaxınlığında da bolşevik-erməni qoşunları arasında da döyüşlər baş verdi. İyunun 26-da 2 mindən çox piyada, 12 pulemyot, 6 topdan ibarət düşmən qüvvələri, iki zirehli və bir nəqliyyat gəmisi ilə Kür çayının Xəzər dənizinə töküldüyü yerdə yerləşən Bankdan qərb istiqamətində hərəkət edərək çayın hər iki tərəfindəki kəndləri dağıdaraq Salyanın üç kilometrliyinə qədər irəlilədilər.[3]. Salyan döyüşlərinin təhlili göstərir ki, 5-ci Qafqaz Tüməninin mövcud qüvvələri Şimali Azərbaycanın ərazi bütövlüyü uğrunda inadla mübarizə apararaq, qardaş xalqı bolşevik və ermənilərin törətdiyi soyqırımlardan qurtara bilmişdir. Bütün bunlar haqqında danışarkən xüsusi olaraq qeyd etmək lazımdır ki, Qafqaz İslam Ordusunun əldə etdiyi qələbədə Azərbaycan generalları Səməd ağa Mehmandarovun, Əli oğlu Şıxlinskinin və digər zabitlərin böyük əməyi olmuşdur.

Tədqiqat işinin ikinci fəslin **"Qafqaz İslam Ordusunun Ağsu, Kürdəmir və Şamaxının azad edilməsi"** adlanan beşinci yarımfəsildə Qafqaz İslam Ordusunun bu istiqamətdə gördüyü işlər işıqlandırılmışdı. Göyçay

---

[1] Kaymakam Rüştü. Büyük harpte Bakü Yollarında 5. Kafkas Piyade Fırkası. 93 Sayılı Askeri Mecmuanın 34 Sayılı tarih kısmı. İstanbul: Askeri Matbaa, 1934, s. 35.
[2] Milli Savunma Bakanlığı Arxivi. Nuri Killigilin Şahsi Dosyası, f. 6-8
[3] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 51, D. 243A, F. 007-09.

döyüşlərində məğlub olan bolşevik və erməni qüvvələri iyulun 3-dən etibarən Kürdəmir-Ağsu xəttinə çəkilərək burada müdafiəyə keçdilər.

13-cü Qafqaz alayı iyulun 10-u axşamı Kürdəmiri düşmən qüvvələrindən azad etdi və iyulun 14-də Karrar stansiyasını ələ keçirdi[1].

Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda uğurlu mübarizəsi nəticəsində iyulun 23-dən etibarən düşmən Hacıqabula qədər çəkilmiş, dəmiryolu boyunca geri çəkilərkən su təsisatını və bu xətt üzərindəki körpüləri bərbad hala salmışlar[2].

Tədqiqat işinin ikinci fəslinin altıncı yarımfəsli **"Birinci Bakı hücumu"** adlanır**.** Qafqaz İslam Ordusu iyulun 25-də Ələtə çatdıqda, elə həmin gün Bakı Sovetinin toplantısında S.Şaumyan tərəfdar olmasına baxmayaraq ingilislərdən əsgəri yardım istəməsi haqqında dekret imzalayır. Qərar 259 nəfər lehinə olaraq qəbul edir. Bu zaman S. Şaumyan öz vəzifəsindən istifadə edərək bu biabırçı qərarı qəbul etdirir. İyulun 31-də bolşevik hökuməti təhvil verirlər və bundan sonra avqustun 1-də Bakıda ruslar, ermənilər və sosialistlərdən ibarət "Mərkəzi Xəzər Diktaturası" və ya "Sentrokaspi Diktaturası" hakimiyyəti ələ alır[3]. Bu koalisiyanın ilk işi ingilis generalı Denstervellini Bakını qorumaq adı ilə onları şəhərə çağırmaq idi.

Dissertasiyanın **"İkinci Bakı hücumu və şəhərin azad edilməsi"** adlanan üçüncü fəsil üç yarımfəsldən ibarətdir. Birinci yarımfəsil "**Yanardağ və Binəqədi təpələrinin ələ keçirilməsi uğrunda mübarizə"** adlanır və bu fəsildə Alman nümayəndə heyətinin Bakı cəbhəsində apardığı müşahidələr nəticəsində 5-ci Qafqaz Diviziyasının komandirinin verdiyi raporta cavab olaraq Qafqaz İslam Ordusu komandirinə göndərdiyi əmrdə işıqlandırılmışdı. Əmrdə deyilirdi: "22 avqust 1918-ci il tarixli və 500 saylı əmrə əsasən 364-311 rəqəmli təpələr və Digahın zəbti lazımdır. Hərəkatı 26 avqust 1918-ci il səhəri icra edin"[4].

Verilmiş əmrə əsasən avqustun 25-də birlik komandirlərinə hücum ediləcək ərazi haqqında məlumat verildi. Bakı istiqamətdə əsas hücumu 13-cü Qafqaz alayı edəcək, Maştağa dəstəsi isə onunla birlikdə hücum edirmiş formasında hərəkət etməli idi. Avqustun 26-da 13-cü Qafqaz Alayı düşmənin yerləşdiyi Yanardağ (Mud Volcano) təpəsinə topçuların şiddətli atəşin-

---

[1] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3823, D. 43, F. 1; 5, K. 3823, D. 22, F. 7-5

[2] Yenə orada. BDH Kol. K. 3820, D. 40, F. 6-012-03.

[3] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3819, D. 6, F. 46.

[4] Yenə orada. BDH Kol., K. 3823, D. 22, F. 7-6, 7-7.

dən sonra hücuma başladı. Avqustun 31-də saat 06.30-da 311-ci rəqəmli Binəqədi təpəsindəki hörülmüş məftillər kəsildi və təpə 13-cü Qafqaz alayı tərəfindən edilən şiddətli hücum nəticəsində ələ keçirildi. Biləcəri istiqamətində qaçan düşmən, topçu və pulemyot atəşləri ilə təqib edildi. Şimal Qrupundan 38-ci alay 1 sentyabr 1918-ci il tarixində saat 04. 38-də hücumlarını davam edərək günorta vaxtı Digah-Məhəmmədi xətti, Digah kəndi və cənubundakı 345 rəqəmli təpəni tamamilə ələ keçirdi.

Balaxanı tərəfinə geri çəkilən erməni, rus və ingilis əsgərlərinə top və pulemyot atəşi ilə böyük zərbə vurulmuşdu. Bakıdan qalxan bir təyyarə isə top atəşi ilə endirilmişdi. Erməni və rus əsgərləri tərəfdə vuruşmalara ingilis əsgərləri də fəal qoşulmuş və xeyli itki vermişdi. Beləliklə, Yanardağ və Binəqədi məntəqələri uğrunda aparılan döyüşdə 3 zabit və 23 əsgər şəhid, 2 zabit və 70 əsgər yaralı olmaqla cəmi 98 itki verilmişdi. Qarşı tərəfdən isə bir ingilis zabiti və çoxu ingilis olan 155 əsgər ölmüş, 3 rus və 2 ingilis zabiti ilə birlikdə 51 ingilis əsgəri əsir alınmışdı. Yenə bu döyüşdə 14 pulemyot, 100 ədəd top mərmisi və 70 sandıq tüfəng gülləsi ələ keçirilmişdi[1].

Beləliklə Bakı istiqamətində hücuma hazırlıqlar tam bitmək üzrə idi. Bununla yanaşı ordunu daha da möhkəmləndirmək məqsədilə əlavə Türk ordusu Gəncəyə gəlməkdə idi. Ordunun təchizat və silah baxımından hər hansı bir ehtiyacı olmamasına baxmayaraq, sursata böyük ehtiyac olduğunu, Nuru Paşa Şərq Ordular Qrup Komandirliyinə bildirmişdir[2].

Bakı şəhərinin türklərin əlinə keçməməsi üçün ruslar, almanlara müəyyən vədlər verərək, öz tərəflərinə çəkməyə çalışdılar. Nəhayət 27 avqust 1918-ci il tarixində Brest-Litovsk müqaviləsinə əlavə bir məxfi razılaşma imzaladılar. Babi Aliyə avqustun 28-də İstanbuldakı Almaniya Səfirliyi tərəfindən göndərilmiş ruslarla imzalanmış müqavilənin əsas maddələrində yazılırdı: “Rus hökuməti Almaniyanın Gürcüstanı müstəqil bir dövlət olaraq tanımasını təsdiqləyir. Qafqazda Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə buraxılmış olan 3 sancağın xaricində hər hansı bir hökumət tərəfindən ordunun hərəkətlərinə Almaniya heç bir yardım etməyəcək.

Üçüncü fəslin ikinci yarımfəsli **“15-ci Piyada Diviziyasının Azərbaycana gəlməsi və ordunun yenidən təşkil edilməsi”** adlanır. Osmanlı dövlətinin Şərq siyasətinin hədəfi olan Bakının ələ keçirilməsi və Şimali Azərbaycanın dövlət müstəqilliyinə qovuşması bu qədər qüvvə ilə mümkün gö-

---

[1] Kaymakam Rüştü. Büyük harpte Bakü Yollarında 5. Kafkas Piyade Fırkası. 93 Sayılı Askeri Mecmuanın 34 Sayılı tarih kısmı. İstanbul: Askeri Matbaa, 1934, s. 180.
[2] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3823, D. 46, F. 22- 026

rünmürdü. Digər tərəfdən Osmanlı dövlətinin müttəfiqi olan Almaniyanın Osmanlı hökuməti və baş komandanı Ənvər paşa Bakı məsələsində təzyiqləri yüksək həddə çatmışdı[1].

Belə bir tarixi şəraitdə, Nuru paşanın İkinci Bakı hücumu üçün Qafqaz İslam Ordusunun əlavə qüvvə istəyi Şərq Orduları Qrup Komandirliyi tərəfindən razılıqla qarşılandı. Razılığa əsasən, 15-ci Piyada Diviziyasının göndərilməsinə qərar verildi. Nuru Paşa, sentyabrın 11-da qəti hücuma keçəcəyini əmr etdi.

İkinci Bakı hücumunun başlanacağı 14 sentyabra qədər hər iki tərəf cəbhəsini gücləndirməyə üstünlük verdi. Bu zaman qarşılıqlı açılan atəşlərdən başqa mühüm bir hərəkət olmamışdı.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"Qafqaz İslam Ordusunun Bakını azad etməsi"** adlanır. Qafqaz İslam Ordusunun ikinci Bakı hücumu ilə bağlı Nuru Paşa öz raportunda yazırdı: "Sentyabrın 12-nə qədər 15-ci diviziyanın digər 56-cı alayı və 36-cı diviziyanın 10-cu alayı da bizə qoşulmuşdu. Ehtiyacımız olan silah-sursatı da əldə etmişdik. Sentyabrın 13-də düşməndə şimaldan hücum etmək fikrini yaratmaq üçün birləşmələrin hamısı Yanardağ-Binəqədi bölgəsində toplamışdı. Sentyabrın 15-də günortadan sonra əvvəlcə 56-cı alay şəhərə daxil olmuş və mühüm obyektlər ələ keçirilmişdi. Hədəfimiz olan Bakı alınmış, bu mühüm əməliyyat sona çatmışdı. Bundan sonra hərəkatımız Şimalı Qafqaz və Qarabağa istiqamətlənmişdi"[2].

Osmanlı dövlətinin Şərq siyasətinin hədəfi olan Bakının ələ keçirilməsi və Şimali Azərbaycanın dövlət müstəqilliyinə qovuşması bu qədər qüvvə ilə mümkün görünmürdü. Digər tərəfdən Osmanlı dövlətinin müttəfiqi olan Almaniyanın Osmanlı hökuməti və baş komandanı Ənvər paşanın Bakı məsələsində təzyiqləri yüksək həddə çatmışdı[3]. Almanlar Qafqaz İslam Ordusunun Bakını ələ keçirməsinə qarşı olduqları üçün şəhərin alman əsgərləri tərəfindən işğal edilməsinin vacibliyi istiqamətindəki istəklərini qəti olaraq bildirdilər.

Nuru paşa Bakının qurtuluşu münasibəti ilə xalqa müraciət edərək xalqın öz gündəlik işi ilə məşğul olmasını, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ən qısa zamanda vəziyyətə nəzarəti ələ alacağını və günahkarla-

---

[1] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3830, D. 5, F. 113.

[2] Milli Savunma Bakanlığı Arxivi. Nuri Killigilin Şahsi Dosyası, f. 6-12

[3] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3830, D. 5, F. 113.

rın cəzalandırılması üçün tədbirlər görəcəyini elan etdi. Nuru Paşa dil, din və irq ayrılığına yol verilməyəcəyini, hər kəsin qanunlar qarşısında cavabdeh olacağını, insanların can və mal mühafizəsinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təminatı altında olduğunu bildirdi.

Qorxu, pis münasibət və soyqırım artıq bitmiş, öz yurdunda əsir insan münasibəti görmə kabusu sona çatmışdı. Bu gün yüz ildir çəkilən əsarət və müstəmləkənin bitdiyi, azadlıq işıqlarının aydınlatdığı bir gün idi.

**"Qafqaz İslam Ordusunun Qarabağdakı fəaliyyəti"** adlanan üçüncü fəslin dördüncü yarımfəslindən Qarabağ və digər bölgələrdə Qafqaz İslam Ordusunun fəaliyyəti təhlil edilmişdi**.**

Nuru Paşanın Şimali Azərbaycana gəldiyi zaman onun digər bölgələrində olduğu kimi Qarabağ və digər bölgələrdə də türk və müsəlman əhalisinin vəziyyəti ürəkaçan deyildi. Rusların Cənubi Qafqazdan geri çəkilməsi ilə Göyçə gölünün qərbindəki silahsız İrəvan azərbaycanlıları ermənilər tərəfindən qətliyama məruz qalmaqda idi. Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra ordunun baş komandanlığının qarşısında dayanan başlıca planlardan biri təcili sürətdə Qarabağa, Naxçıvana və İrəvana hərbi qüvvələr göndərilməsi məsələsi idi[1]. Çünki, bu bölgələrdə yad qüvvələrin təcavüzü genişlənmədə idi.

Belə bir şəraitdə, Nuru Paşa Bakını ələ keçirdikdən dərhal sonra Qarabağ hərəkatına başladı. Qısa müddət ərzində bölgədə erməni qırğınlarının qarşısını almaq üçün Nuru Paşanın əmri ilə Naxçıvan məntəqə komandiri Xəlil bəy bir topçu dəstəsini Ordubaddan Zəngəzura göndərdi.

**"Mudros sülhü və Osmanlı ordusunun Şimali Azərbaycandan geri çəkilməsi"** adlı dördüncü fəsil iki yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli "**Nuru Paşanın Mudros sülhünə qədər Azərbaycandakı fəaliyyətləri"** adlanır. Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra şəhərdə asayiş təmin etməklə, işləmək üçün normal şərait yaratmış və Bakıdakı neft və digər sahələri öz nəzarəti altına almışdı. Nuru Paşanın 1918-ci il sentyabrın 19-da Şərq Orduları qrup, 3-cü və 9-cu Ordu Komandirlərinə göndərdiyi teleqrafda şəhərin ümumi vəziyyəti ilə bağlı yazırdı: "Bakıda asayiş təmin edilmişdir. Hər kəs iş və gücü ilə məşğuliyyətə başlamışdır. Bakı ətrafında neft quyuları və şəhərdəki bütün idarələr öz fəaliyyətini bərpa ediblər[2].

---

[1] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. Birinci Dünya Harbi (BDH) Kolleksiyonu. K. 3187, H-7, F. 3.

[2] Yenə orada. BDH Kol. K. 3820, D. 22, F. 12-028.

Nuru paşa öz xatirələrində yazır: "Bakı alındıqdan sonra Gəncədə olan Azərbaycan hökuməti Bakıya gələrək Baş nazir Fətəli xan Xoyskinin başçılığı ilə ölkəni Bakıdan idarə etməyə başladı[1]. Sentyabrın 27-də Nuru Paşa və 5-ci Qafqaz Diviziya Komandiri Mürsəl Paşanın dəvəti ilə, 15-cü Piyada Diviziya Komandiri zabit Süleyman İzzət Bəy və diviziyanın yüksək rütbəli zabitləri ilə birlikdə Bakıya gəldilər.[2].

Diviziyanın, 25 sentyabr tarixində isə 4-cü, 5-ci və 6-cı Alaylar 2-ci Azərbaycan Diviziyasının sərəncamına verildi. 4-cü, 5 və 6-cı alaylar isə hələ təşkilatlanmamışdı. Diviziyaların təşkilini sürətləndirmək üçün Nuru paşanın əmri ilə 9-cu Qafqaz Alayı 1-ci Azərbaycan Diviziyasına, 10-cu Qafqaz Alayı isə 2-ci Azərbaycan Diviziyasının tabeliyinə verildi. Azərbaycan Diviziyaları düşməndən hərbi qənimət kimi ələ keçirilmiş silah və toplarla silahlandırıldı. Bununla yanaşı sərhəd batalyonlarının təşkilinə də başlanıldı[3].

Bu zaman Almaniyanın sülh üçün Amerika Birləşmiş Ştatlarına müraciət etməsi ilə müharibənin sonunun gəldiyini bilən Ənvər Paşa, sülh masasında Qafqazda qüvvətli olmaq və Azərbaycan Xalq Cümhuriyyəti öz ordusu ilə özünü müdafiə etməsi üçün lazımlı tədbirlərin alınmasını və yeni qurulan Azərbaycan Ordusunun bol silah və sursatla təmin edilməsini bildirmişdi.

Dördüncü fəslin ikinci yarımfəslində **"Mudros sülhündən sonra Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyətləri" geniş işıqlandırılmışdır.** 1918-ci ilin sentyabrın ortalarında Bolqar ordusunun məğlub olması nəticəsində Makedoniya cəbhəsindəki məğlubiyyət müttəfiq ordusunun İstanbul və Sofya istiqamətində yolu açılmış oldu. Polkovnik Hüseyn Rauf bəy tərəfindən Lemnos adasında dayanmış Mudros adlı ingilis hərbi gəmisində 30 oktyabr 1918-ci il tarixində Mondros sülh müqaviləsi imzalandı. 25 maddən ibarət olan Mudros sülh müqaviləsinin Qafqazla bağlı olan 11-ci və 15-ci maddələrində yazılırdı: "Maddə 11 – İranın şimal-qərbindəki və Cənub Qafqazdakı Osmanlı ordusu dərhal əvvəlki mövqelərinə geri çəkilmək barəsində əvvəlcədən verilən əmr icra ediləcək. Cənubi Qafqazda əvvəlcə Osmanlı qüvvələrinin qismən boşaldılması əmri verildiyindən, qalan qismi müttəfiqlər tərəfindən məhəlli vəziyyət öyrənildikdən sonra tələb

[1] Milli Savunma Bakanlığı Arxivi. Nuri Killigilin Şahsi Dosyası. F. 6-18.

[2] Emekli Kurmay Yarbay Süleyman İzzet (E. Kur. Yarbay). Büyük Harpte (1334-1918) 15. Piyade Tümeninin Azerbaycan ve Şimali Kafkasyadakı Haraket ve Muharebeleri. 103 saylı Askeri mecmua, Sayı 44, İstanbul: Askeri matbaa, 1936, s. 69.

[3] Milli Savunma Bakanlığı Arxivi. Nuri Killigilin Şahsi Dosyası. F. 10.

olunca boşaldılacaq.

Maddə 15 – Bütün dəmiryolları xəttinə nəzarət edən zabitlər məmur ediləcək. Bu gün Osmanlı hökumətinin nəzarəti altında olan Cənubi Qafqazın dəmiryolları sərbəst və tam olaraq nəzarət məmurlarının idarəsi altında qalacaqdır. Əhalinin ehtiyacının təmini diqqətə alınacaqdır. Bu maddəyə Batumun işğalı da daxildir. Osmanlı hökuməti Bakının işğalına etiraz etməyəcək"[1]. Bu maddələrə əsasən Brest-Litovsk müqaviləsi qüvvədən düşür, Osmanlı Dövləti Elviye-i Selasi ilə birgə, Qafqaz hərəkatı ilə İran, Şimali Azərbaycan və Dağıstanda əldə etdiyi torpaqları müttəfiq dövlətlərinin istəyi ilə tərk etmək məcburiyyətində qaldı. Beləliklə ingilislər Osmanlı dövlətinin üstün olduğu tək cəbhə olan Qafqaz cəbhəsini döyüşmədən Osmanlı Türkiyəsi Ordusunu uzaqlaşdıraraq əllərinə keçirdilər. Osmanlı Türkiyəsi Ordusunu uzaqlaşdırdıqdan sonra bölgəni bir müddət idarələrində saxlayan ingilislər, daha sonra ermənilərə və gürcülərə verdilər. Bundan sonun türk və müsəlman əhalisinə qarşı qırğınlar yenidən başladı.

Bu əmrə əsasən Nuru Paşa Azərbaycan Ordusunu təkmilləşdirmək məqsədilə Baş nazir Fətəli xan Xoyskinin razılığı əsasında Azərbaycan hökuməti nəzdində çalışmaq üçün Osmanlı ordusundan istefa verir[2]. 1918-ci il noyabrın 12-də Ənzəlidə olan ingilis qoşunları komandanı Tomson Bakıya bir heyət göndərdi. Həmin heyət noyabr ayının 17-də saat 10-da Bakının ingilis qoşunları tərəfindən tutulacağını bildirərək həmin günə kimi şəhərin türk qoşunları tərəfindən boşaldılmasını tələb etdi.

Dissertasiyanın **Nəticə** hissəsində ümumiləşdirmələr aparılmış, tədqiqatın yekunları verilmiş, iş prosesində əldə olunan əsas nəticələr göstərilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1.Qafqaz islam Ordusunun ikinci Bakı hücumuna qədər Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizələr // Bakı Avrasiya Universiteti. Sivilizasiya. Elmi-nəzəri jurnal, №3, Bakı: 2014, s.100-104.

2.Qafqaz islam Ordusunun Mudros sülhünə qədər Azərbaycandakı fəaliyyətləri // Bakı Avrasiya Universiteti. Sivilizasiya. Elmi-nəzəri jurnal, №4,


[1] Genelkurmay Askeri Tarih ve Stratrjik Etüt Başkanlığı (ATASE) Arşivi. İstiklal Harbi (İSH) Kolleksiyonu. Koll., K. 51, D. 198, F. 1.

[2] Milli Savunma Bakanlığı Arxivi. Nuri Killigilin Şahsi Dosyası.

Bakı: 2014, s.127-132.

3.Qafqaz islam Ordusunun ideyasının meydana çıxması // Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərləri" №1, Bakı: 2010, s. 148-152.

4.Nuru paşanın Gəncəyə gəlməsi və təşkilat işlərinə başlaması // Tarix və onun problemləri, №2, s. 120-124.

5.Qafqaz İslam Ordusunun Bakını azad etməsi (Türk mənbələri əsasında) // Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları, 05-07 may 2014, Bakı: s. 440-442

6.Освобождение Баку Кавказской Исламской Армией // Національний Педагогічний Університет імені М.П.Драгоманова. Українська Академія Наук. Гілея науковии вісник. Збірник наукових праць. Випуск 83(№ 4), Київ: 2014, с. 149-152.

7.Qafqaz islam Ordusunun Qarabağdaki fəaliyyəti (Türk mənbələri əsasında) // Gəncə Dövlət Universitetinin "Elmi Xəbərləri". Fundamental, humanitar və təbiət elmləri seriyası, №3, Gəncə: 2014. s. 210-215.

8.Nuru Paşanın Qafqaz islam Ordusu komandiri təyin edilməsi // Gəncə Dövlət Universitetinin "Elmi Xəbərləri". Fundamental, humanitar və təbiət elmləri seriyası, №1, Gəncə: 2014. s. 171-176.

9.Qafqaz islam Ordusunun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsinin ilk mərhələsi // AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", 34-35-ci cildlər, Bakı: 2010, s. 205-212.

**M.T.Kilich**

# THE ROLE OF THE CAUCASIAN ISLAM ARMY IN THE STRUGGLE FOR INDEPENDENCE OF AZERBAIJAN (BASED ON TURKISH SOURCES)

## SUMMARY

At the entrance, defined the relevance of the thesis, goals and objectives, shown scientific innovation, important of experiment of research, has been given analysis of problem of the source and historiography.

In the first chapter of the dissertation, in the title given as **"After february revulation in 1917th, political situation of Caucasian"** events happenned on the eve of independence in Azerbaijan, appeared ideas of Caucasian islam army, and appointed Nuri Pasha as a commander of Caucasian islam army were extently researched.

Second Chapter of the dissertation consists of seven parts, named **"coming of Caucasian islam army to Ganja city and firt battle for integrity of Azerbaijan's territories".** Here it is enlightened largly ,arriving to Ganja city of Nuri Pasha and begin the work of the organization, keeping control of Armenian and gathering of weapons in Ganja, battle for Goychay, Salyan, Agsu,Kurdemir ang Shamakhy cities, released of these cities from Bolshevik-Armenian gangs, and attacking of first Baku.

In the third chapter, it is named as **"second Baku attacking and capturing of Baku"** and consists of three paraghraphs. In here struggling for the capture of Yanardag and Binegedi hills by Caucasian Islam army, arrivalling of the 15th Infantry Division to the Azerbaijan and re constraction of the army, made Baku liberate, actions in Garabagh habe ben analyzed and studied.

In the last part of the dissertation named as **"Mondros peace and withdrawal of Ottoman army from Azerbaijan"** and activities of Nuri Pasha until Mondros peace, activities of Caucasian islam army after Mondros peace, challenges faced by the Turkish Army in the Caucasus and the withdrawal of Turkish army from Caucasus have been extensively investigated.

In the conclussion part of the disartation, given of results of work and summarized the main results of the dissartation.

**М.Т.Кылыч**

# РОЛЬ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ В БОРЬБЕ ЗА НЕЗАВИСИМОСТЬ АЗЕРБАЙДЖАНА (на основе турецких источников)

## РЕЗЮМЕ

В диссертации впервые в отечественной историографии исследуется проблема и роль Кавказской Исламской Армии в борьбе за независимость Азербайджана.

Диссертация состоит из введения, четырех глав, пятнадцати параграфов, заключения и списка использованной литературы. Во «Введении» диссертации раскрываются актуальность, цель и научно–практическая значимость диссертации.

В первой главе диссертации под названием «**Политическая ситуация на Кавказе после Февральской революции 1917 года**» были детально изучены ситуация в Северном Азербайджане накануне обретения независимости, появление Кавказской Исламской Армии и назначение Нуру Паши ее командиром.

Вторая глава диссертации под названием «**Прибытие Кавказской Исламской Армии в Гянджу и первый этап борьбы за территориальную целостность Азербайджана**» состоит из 7 параграфов. Здесь были исследованы такие вопросы, как прибытие Нуру Паши в Гянджу, организационные дела, усмирение армян в Гяндже и конфискация оружия, бои Кавказской Исламской Армии за Сальян, Агсу, Кюрдамир, а также описывается штурм Баку.

Третья глава диссертации под названием «**Вторая попытка освобождения города Баку**» состоит из трех параграфов, в которых освещены бои за захват холмов Йанардага и Бинагади Кавказской Исламской Армией, приход 15 пехотной дивизии в Азербайджан и реорганизация армии, освобождение Баку, а также исследована ее деятельность в Карабахе.

Последняя глава диссертации **«Мудросский мир и отход Османской армии из Северного Азербайджана»** охватывает деятельность Нуру Паши в Азербайджане до Мудросского мирного соглашения, а также повествуется о трудностях, с которыми пришлось столкнуться Кавказской Исламской Армии при отходе из Южного Кавказа после мирного соглашения.

В «Заключении» диссертации автором были приведены основные выводы проведенного исследования.

Əla növ kağız, formatı 60x84 - 1/16
Tirajı 100 nüsxə

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**МЕХМЕТ ТЕМЕЛ оглу КЫЛЫЧ**

# РОЛЬ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ В БОРЬБЕ ЗА НЕЗАВИСИМОСТЬ АЗЕРБАЙДЖАНА
## (на основе турецких источников)

*Специальность: 5502.01 – «Всеобщая история»*

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку – 2015**